# "Atama deyin, oğlu kişi kimi şəhid oldu"- "Pulemyotun canavarı", "PK Orxan"...

**Elxan Şirinov:** *"Orxanın bu sözləri bizim üçün böyük bir təsəllidir"*

**Könül verib könül aldığı qızla üç ay idi ki, nişanlanmışdı. Xəyalından bəylik taxtına oturacağı gün keçirdi, o da ailə qurub oğul-uşaq sahibi olacaqdı. Bu onun yeganə arzusu deyildi əlbəttə, ən böyük arzusu işğal altında olan Vətən torpaqlarının düşmən tapdağından azad olunması idi. Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsinin şəhidi Orxan Elxan oğlu Şirinovdan danışırıq.**



*"Nə biləydik ki, noyabr ayında ona toy etmək bizə nəsib olmayacaq, evimizə tabutu gələcək..."*

1998-ci il sentyabrın 14-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub.

Ali Baş Komandan İlham Əliyevin qismən səfərbərlik elanından sonra 29 sentyabr tarixində hərbi komissarlığa gedərək, könüllü cəbhəyə yollanıb. Eyni gün orta məktəbdə eyni sinifdə oxuduğu və çox yaxın dostu olan Elgün Əli oğlu Alışov da Orxanla bərabər cəbhəyə yollanıb.

Orxan 21 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Orxanın döyüş yolu Füzulidən başlayıb. Məsuliyyətində olan pulemyot silahını qısa zamanda böyük diqqətlə istifadə etdiyi üçün "Pulemyotun canavarı", "PK-Orxan" ləqəblərini qazanır.

21 oktyabrdan sonra ailəsi Orxandan nə bir zəng, nə bir xəbər alır.

Komandirinin sonradan dediyinə görə, həmin ərəfədə gecə saatlarında Qubadlı rayonu uğrunda amansız bir döyüş başlayır. Orxanın birliyində pulemyot silahının mərmilərini daşıyan əsgərimiz yara alır. Komandirinin "Şirinov, silahının başına keç" əmri ilə Orxan silahının mərmilərini də özü daşıyaraq döyüşür.

O döyüşdə Orxan sinəsindən aldığı yarayla şəhidlik zirvəsinə ucalır.

Komandiri də yaralanır, Orxanın son sözlərini də ailəsinə komandiri çatdırıb: "Komandir, atama deyin, oğlun kişi kimi şəhid oldu". Orxanın bu sözləri bu gün ailəsinə, ata-anasına təsəlli olmaqla yanaşı, Vətən uğrunda gözünü qırpmadan canını fəda edən qəhrəman bir oğulun yadigarıdır.

Orxan Şirinovun atası Elxan Şirinovla Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 gün-Tarixi zəfər" adlı IV cildlik kitabın I,II, və III cildlərinin İmişli rayonunda təqdimatı ilə bağlı ezamiyyətdə olarkən tanış olub söhbətləşdik.

Ata üçün yeganə oğlu barədə danışmaq elə də asan olmadı, boğazını yandıran qəhərin, kövrələn səsinin içindən boylanan ağrını biz də hiss etdik. "Orxan iki bacının tək qardaşı idi. 2006-cı ildə birinci sinfə getdi. 2015-ci ildə Bəhrəmtəpə qəsəbəsi Şəhid Rəhim Alışov adına tam orta məktəbi bitirib.

Orxan kiçik yaşlarında özündən yaşca böyüklərlə dostluq idi. Çox alicənab, mehriban bir oğlan idi. Ürəyi təmiz idi, kin-kudirəti yox idi. Əlində olan bir tikə çörəyi belə dostları ilə paylaşırdı. Oğlum olduğu üçün demirəm, olanı deyirəm.

2016-cı ildə həqiqi hərbi xidmətə çağırılıb, xidmətini Naxçıvan Muxtar Respublikasının Culfa və Sədərək rayonlarında yerinə yetirib. Əsgərlikdə olarkən ermənilərlə üzbəüz xidmət edib. 2017-ci ilin may ayında məzuniyyətə gəldi, 11 gün evdə qaldı, sonra yola saldıq getdik. 3 ay sonra ikinci dəfə məzuniyyətə gəldi. Sözün düzü, onun ikinci məzuniyyətini gözləmirdik. Soruşduq ki, nə yaxşı ikinci dəfə səni məzuniyyətə buraxdılar, bizə xəbər etmədən gəldin? Sonra aydın oldu ki, düşmənlə üzbə-üz olarkən ermənilərin pilotsuz uçuş aparatı biz tərəfə gələrkən əmr gəlib ki, əgər bunu dəf edə bilərsizsə atəş açın. Orxan da ikinci atışda o pilotsuz uçuş aparatını vurmuşdu. Ona görə də ikinci dəfə məzuniyyətə buraxılmışdı. O, pulyomotçu idi, sonradan Vətən müharibəsində ona "PK-nın canavarı" ləqəbi verildi. 2018-ci ilin mart ayında hərbi qulluğu başa vurduqdan sonra evə qayıtdı. Mən özüm ustayam. Orxan da yanımda işləməyə başladı. Başqa yerdə iş tapa bilmədi. Ata-bala baş-başa verib işləyib ailəni dolandırırdıq. Elə oldu ki, dayısı onu 2019-cu ildə Rusiyaya çağırdı, getdi, amma qala bilmədi. Dedi ki, burada yaşaya bilmirəm, Azərbaycana qayıdıram. Əslində, onun getməyini istəmirdim. Övladımın uzaqda olmağını istəmirdim, deyirdim gözümün qarşısında olsun. Yenə də mənim yanımda işləməyə davam etdi. Günlərimiz sakit geçib gedirdi. Tovuz döyüşləri baş verdi, general Polad Həşimov şəhid oldu. Polad Həşimovun şəhid olması Orxana çox ağır təsir etmişdi. Gəlib anasına deyib ki, ana, generalımız şəhid oldu... Orxanın daim qulaq asdığı bir mahnı vardı-"Ana, mən şəhid oldum". Bilmirəm, onu kim oxuyurdu, amma Orxanı öz içinə çəkirdi. O mahnıya mən indi qulaq asa bilmirəm. Polad Həşimov şəhid olmazdan iki gün əvvəl Orxan nişanlanmışdı. Fikrimiz vardı ki, noyabr ayında onun toyunu edək. Amma nə biləydik ki, noyabr ayında ona toy etmək bizə nəsib olmayacaq, evimizə tabutu gələcək".



Ata danışdıqca qəhərlənir, nakam balasının həsrətilə alışıb yanan ürəyinə təsəlli olacaq bir söz, bir kəlmə arayır.

"2020-ci il sentyabr ayının14-də Orxanın sonuncu ad günü oldu, 22 yaşını tamam etdi. Dediyim kimi noyabrı gözləyirdik ki, oğlumun toyunu edək. Amma sentyabrın 27-də 44 Vətən müharibəsi başladı. Müharibə günü qəsəbəmizə bir şəhid gəldi. Gedib şəhidin dəfnində iştirak etdi. Sentyabrında 28-də qohumumuz Kərimli Ramilin dəfnində iştirak edərkən Prezidentin qismən səfərbərlik elan etməsi barədə Sərəncamı oldu. O da mənə demədən bütün qohum-əqrabaya, dostatanışa zəng vurub deyib ki, sabah müharibəyə gedirəm. Bütün dost-tanışları ilə görüşüb hallaşdı. Bacıları ilə görüşəndə çıxıb dedim ki, getmə, buraya gəl, sənə söz deyirəm. Sözümə qulaq asmadı, Orxanı heç cür saxlamaq mümkün olmadı, "ata, mən mütləq gedəcəyəm"-dedi. Səhər tezdən saat 7-nin yarısı durdu, amma nə mənim maşınımla, nə də əmisinin maşını ilə getmədi, dostlarının maşını ilə getdi, biz də gedib onu müharibəyə yola saldıq. Əvvəlcə Ağcabədiyə N saylı hərbi hissəyə getdi. Senytabrın 30-da yanına getdim, bir neçə şəkil də çəkdirdik. Oktyabrın 3-də zəng etdi ki, ata, biz Qarabağ bölgəsinə gedirik, inişallah torpaqlarımızı alıb sağ-salamat geri qayıdarıq. Bizə ancaq dua etmək düşürdü. Getdi. Oktyabrın 3-dən birbaşa döyüşlərə qatıldı. Füzulinin Horadiz qəsəbəsindən Cəbrayıl istiqamətində gedən döyüşlərə qatıldı. Əsas döyüşü Cəbrayıldan başladı. O vaxt o telefonunu maşında "zaryadkaya" qoyarkən ermənilər o maşını vurmuşdu və telefonu itmişdi. Bizimlə tağım komandirinin telefonu ilə daim əlaqə saxlayırdı. Hər gün 1-2 dəqiqəlik də olsa danışırdı. Bir gün səhər ertə mənə zəng vurub dedi ki, ata, haqqınızı halal edin. Mən də kövrəlib dedim ki, balam, nədir danışdığın, nə hallıq istəyirsən? Biz bilmirdik ki, o qızğın döyüşlərdədir. Bizə demişdilər ki, Orxangil ehtiyatda qalacaq. Arada danışanda deyirdi ki, vəziyyət yaxşıdır, irəliləyirik, dua edin. Tağım komandiri də, uşaqlar da "bizə dua edin" deyirdilər. Biz də həmişə dua edirdik. Amma qismət qismətdir. Demək qisməti belə imiş (kövrəlir). Bir dəfə bacılarına deyib ki, olduğu maşını vurublar, "snaryadın" dalğası bunu "sərsəm" edib. Komandir deyib ki, geri qayıt, o da qayıtmaqdan imtina edib. Oktyabrın 16-da, səhv etmirəmsə, Cəbrayılın Dağ Tumas kəndində səngərdə durarkən üzərlərinə 150-dən çox erməni qalxıb. Yanından gələn əsgər danışırdı ki, biz təxminən 20 nəfər idik, Orxan orda böyük bir qəhrəmanlıq göstərib. Orda artıq ona "PK-nın canavarı" adını vermişdilər. Ondan əvvəl də bunun hesabına cəbhəni yarıb əsgərlərimizi mühasirədən çıxarmışdılar. Lənkərandan olan bir oğlan danışırdı ki, Orxanın hesabına biz mühasirədən çıxdıq. Ürəkli oğlan idi. Orxan həmin döyüşdə 50-dən çox ermənini məhv edib. Oktyabrın 20-də mənə zəng edib dedi ki, ata, bizə papaq, şirə və sair al göndər. Nə lazımdısa alıb göndərdim. Saat 16:45-də zəng etdi və "biz gedirik" dedi. Soruşdum ki, hara gedirsiz? "Bilmirəm" dedi. Son danışığımız belə oldu. Oktyabrın 21-i axşamı Cəbrayıldan keçib gediblər. Son döyüşü Qubadlı rayonunun Sarı yataq düzü deyilən yerində olub. Mən özüm gedib oranı gördüm. Onların maşını vurulur, 86 nəfər olublar, 13-ü şəhid olub, 12 yaralı. Orxan vurulan maşından sağ çıxmışdı...Komandir "döyüşə getmək lazımdır, kim getmək istəyir?" deyib, birinci Orxan qabağa çıxıb. Bunu qazilərdən biri danışıb. Gecə döyüşünə gedirlər, üzbəüz döyüş olublar. Orxan oktyabrın 21-də gecə saatlarında şəhid olub. Orada da deyib ki, "komandir, atama deyin, oğlun kişi kimi şəhid oldu". Orxanın bu sözləri bizim üçün böyük bir təsəllidir. Noyabrın 4-də səhər saatlarında bizə xəbər gəldi ki, Orxan şəhid olub gətiririk. Qardaşlarım gedib gətirdilər.

Orxan oktyabrın 16-da bir yaxşı söz deyib. Selfi çəkib deyir ki, yaşasın Azərbaycan!

Nəvəmin ad günündə Orxanın tabutu gəldi...

Bu da bizim üçün çox acınacaqlı oldu..."-deyə Elxan ata bildirdi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Orxan Şirinov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

"Cəsur döyüşçü" medalı ilə təltif edilib.

***İradə SARIYEVA***
***İmişli-Bakı***